**UOT 101.1**

# “KOMMUNİKASİYA VƏ AZADLIQ” KARL YASPERSİN YARADICILIĞI KONTEKSTİNDƏ

**Elnur Rüstəmov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
Sosial psixologiya şöbəsi, dissertant
elnur013@yahoo.com
DOI:10.30546/ifs.2021.1(36).91

**Xülasə.** Məqalədə kommunikasiya problemi ağıl və azadlığın qarşılıqlı əlaqəsi kontekstində nəzərdən keçirilir. Diqqət kommunikasiya probleminin insanların ünsiyyət və qarşılıqlı anlaşma imkanları kimi açıqlanmasına, transsendensiyanın dərk edilməsi yolu ilə azadlığın həyata keçirilməsinə, onun "sərhəd vəziyyətlərinin" aydınlaşdırılmasına və insanın kommunikasiya iradəsinin həyata keçirilməsinə yönəldilir. Bundan əlavə, məqalədə müasir sosial qarşılıqlı təsirlərin xüsusiyyətləri və ekzistensial kommunikasiyanın strukturunun həyat şəraitinə təsiri onun nəzəri-metodoloji potensialı baxımından şərh edilir.

**Məqsəd:** K.Yaspersin fəlsəfəsinin, xüsusilə onun fundamental problemi – kommunikasiya probleminin qoyuluşu, həlli metodu və metodologiyası, problemin müasir fəlsəfi təfəkkür, o cümlədən Azərbaycan fəlsəfəsi üçün məna və əhəmiyyətini aşkara çıxarmaq, onun praktik həyatda zəruri olduğunu müəyyənləşdirmək.

**Metodologiya:** Şərq və Qərb fəlsəfəsinin inkişaf dialektikasından irəli gələn nəticələr, fəlsəfi təfəkkürün əsaslandığı tarixi təcrübə, ontoloji və qnoseoloji prinsiplər, müasir elmin nailiyyətləri və müqayisəli analiz, ümumiləşdirmə, izah metodları istifadə edilmişdir.

**Elmi yeniliyi**: Problemin aktuallığının, onun ontoloji və qnoseoloji funksiyalarının, fəlsəfi problematikada onun yeri və rolunun nəzəri, funksional və praktiki aspektdən tədqiqinə cəhd edilmişdir.

**Açar sozlər:** elm fəlsəfəsi, kommunikasiya, ekzistensial ünsiyyət, azadlıq, transsendensiya, fəlsəfi inanc.

## « КОММУНИКАЦИЯ И СВОБОДА» В КОНТЕКСТЕ ТВОРЧЕСТВА КАРЛА ЯСПЕРСА

**Эльнур Рустамов**

**Резюме**. В статье проблема коммуникации рассматривается во взаимодействии разума и свободы. Внимание уделяется раскрытию проблемы коммуникации, как возможности общения и взаимопонимания людей, реализации свободы посредством осознания трансцендентности, выяснению "пограничных ситуаций" и реализации коммуникационной воли человека. Кроме того, в статье разъясняются особенности современного социального взаимодействия и его теоретико-методологический потенциал влияния на жизненные условия структуры экзистенциальной коммуникации.

**Цель:** раскрыть смысл и значение философии К. Ясперса, особенности ее фундаментальной проблемы - проблемы коммуникации, метода и методологии ее решения, современного философского осмысления проблемы, в том числе философии Азербайджана, определить ее необходимость в практической жизни.

**Методология:** использованы результаты диалектики развития восточной и западной философии, исторический опыт, на котором базируется философское мышление, онтологические и гносеологические принципы, достижения современной науки и методы

сравнительного анализа, обобщения, объяснения.

**Научная новизна:** была предпринята попытка изучения теоретического, функционального и практического аспектов актуальности проблемы, ее онтологических и гносеологических функций, ее места и роли в философской проблематике.

**Ключевые слова**: философия науки, общение, экзистенциальное общение, свобода, трансцендентность, философская вера.

## "COMMUNİCATİON AND FREEDOM" İN THE CONTEXT OF THE WORK OF CARL JASPERS

**Elnur Rustamov**

**Abstract.** The article deals with the problem of communication in the interaction of reason and freedom. Attention is paid to the disclosure of the problem of communication as a possibility of communication and mutual understanding of people, the realization of freedom through the awareness of transcendence, the clarification of "borderline situations" and the implementation of the communication will of a person. In addition, the article explains the features of modern social interaction and its theoretical and methodological potential to influence the life conditions of the structure of existential communication.

**Purpose:** to reveal the meaning and significance of K. Jaspers' philosophy, especially its fundamental problem - the problem of communication, the method and methodology of its solution, the modern philosophical thinking of the problem, including the philosophy of Azerbaijan, to determine its necessity in practical life.

**Methodology:** the results arising from the dialectics of development of Eastern and Western philosophy, historical experience based on philosophical thinking, ontological and epistemological principles, achievements of modern science and methods of comparative analysis, generalization, explanation were used.

**Scientific novelty:** an attempt was made to study the urgency of the problem, its ontological and epistemological functions, its place and role in philosophical problems from the theoretical, functional and practical aspects.

**Keywords:** philosophy of science, communication, existential communication, freedom, transcendence, philosophical belief.

## Giriş/Introduction

Kommunikasiya bəşəri mövcudluğun bütün formalarının harmonik başlanğıcıdır. O, bütün mövcudluq formalarını əlaqələndirməklə bərabər, onların hər birində öz təsirini göstərir. Postklassik elmdə kommunikasiyanın fəlsəfi anlayışının mövcud konsepsiyalarının müxtəlifliyi onun sonrakı sistemli nəzərdən keçirilməsi və təhlili zərurətini şərtləndirir. Bu baxımdan K. Yaspersın ekzistensial fəlsəfəsi xüsusi maraq kəsb edirki, burada da ekzistensiya insan varlığının müəyyən səviyyəsi və onunla bağlı ekzistensial ünsiyyət forması kimi diqqət mərkəzindədir. Elm fəlsəfəsinin aktual məsələlərindən biri biliklərin müxtəlif sahələrinin əlaqələndiricisi olan, elmi tədqiqatların müxtəlif sahələrini informativ şəkildə birləşdirən və strukturlaşdıran, onlar arasında fikir mübadiləsinə, dialoq anlayışına və konstruktiv konsensusa səbəb olan idrakda kommunikasiyanın rolunu təhlil etməkdir. Buna görə də elmin inkişafının postklassik mərhələsində kommunikasiya problemi bir sıra fəlsəfi istiqamətlərin əsas mövzularından birinə çevrilir.

Yaspersin ekzistensial kommunikasiya konsepsiyasının əsas problemlərindən biri subyektlər arasında qarşılıqlı anlaşmaya nail olmaq üçün mümkün olan zəruri şərtlərin təhlilidir. Onları aşkar etmək üçün Yaspers "tarixçilik", "sərhəd vəziyyət", "fəlsəfi inam" anlayışlarını təqdim edir,

insanların birləşdiyi kommunikasiya vahid intersubyekt çərçivəsini müəyyənləşdirir. Yaspers müəyyən bir mühitdə insanın həyatda öz varlığını, ətrafdakı əşyaları dərk etməsi, fikirlərin mövcudluğu və mümkün ekzistensiyanın mənəvi tərəfi barədə təsəvvürlərini dərk edən yolları təhlil edir.

Yaspersin kommunikasiya və insanla bağlı fikirlərinin mahiyyəti ondan ibarətdir ki, insan kommunikasiyaya – başqaları ilə ünsiyyətə heç vaxt vasitə kimi daxil ola bilməz, bu, onun təbiətinə ziddir; kommunikasiya insan üçün elə bir sferadır ki, orada insan özünü son məqsəd kimi reallaşdırır. Başqa sözlə, insan kommunikasiyada və kommunikasiya vasitəsilə özünü həqiqi azad insan kimi gerçəkləşdirir. Onu da qeyd etmək lazımdır ki, kommunikasiya ümumi xarakterə malik olduğu halda, azadlıq və ekzistensiya fərdi xarakter daşıyır [3, s.69].

İnsanın varlığını araşdırmağa davam edən Yaspers insanı mümkün ekzistensiya kimi təhlil etməyə davam edir. İnsan həyatının özü təcrübəli obyektiv varlıq hüdudlarından kənarda, şüurdankənar mənbələrdən qaynaqlanır. (Buna görə də bir insanın həyat vəziyyəti, özü haqqında fikirlərinin indiki varlığı, biliyi, mənəvi dünyası ilə uyğunsuzluğu indiki varlığın qeyd-şərtsiz, davamlı bir səylə tabe olması nəticəsində yaranan narazılıqla da müəyyən edilir). Azadlıq insanın öz arzu və ideallarını istədiyi kimi gerçəkləşdirmək qabiliyyətidir. İnsan "arzular kompleksi" kimi mövcud olduğuna görə, öz arzularını yerinə yetirmək imkanından məhrumdursa, onun həyatı heçlikdən başqa bir şey deyildir. Məşhur yapon ictimai xadimi və filosofu Y.Emori öz həmvətənlərinə müraciət edərək qeyd edirdi ki, bütün insanlar "böyük bir xəzinəyə sahibdirlər"; bu xəzinə nə pul, nə zinət əşyaları, nə gözəl qadın, yaxud, istedadlı uşaq deyil; "bu xəzinə onların hər birindən dəfələrlə qiymətlidir. Bu, azadlıq hüququdur. Azadlıq yoxdursa, həqiqi həyat da yoxdur. Xoşbəxtlik və firavanlıq üçün xalqın hüquqlarını möhkəmləndirmək və azadlığını genişləndirmək lazımdır" [7, s.194]. Həmin müəllif həm də qeyd edir ki, cəmiyyətdə bir sıra şeyləri etmək ayıb olduğu kimi, "insanların azadlıq hüququnun olmaması da ayıbdır". Y.Emori daha sonra qeyd edir ki, həyatlarında və cəmiyyətdə öz azadlığını ortaya qoymağı bacarmayanları "dövlətdə ölü canlardan başqa bir şey adlandıra bilməzsən". Əslinə baxılsa, azadlıq da insan kimi, fəlsəfənin əbədi problemi olaraq qalmaqdadır. Zaman keçdikcə bu problem öz məzmun və mahiyyətini daha da aktuallaşdırır. Ekzistensializmin bu problemi fəlsəfi təfəkkürün mərkəzinə çəkməsi isə bunu bir daha sübut edir [1, s.197].

## Əsas hissə/Main part

### Kommunikasiya və azadlıq problemi

Azadlıq, ümumiyyətlə, fəlsəfədə çox mübahisəli anlayışlardan, bəlkə də, birincisidir. Başqa cür ola da bilməz, ona görə ki, azadlıq insan həyatından və onun xoşbəxtliyindən ayrılmazdır. Azadlıq, əslində, həyatdır – insan yaşayırsa, azad olmalıdır, azaddırsa, demək yaşayır. Həyat və azadlığın əlaqə və münasibəti bu cürdür. Təsadüfi deyildir ki, bu anlayış ətrafında Sokratdan üzü bəri fəlsəfi mübahisələr və müzakirələr heç vaxt səngiməyib, əksinə, zaman keçdikcə, insan öz biliyini artırdıqca və zəkasını zənginləşdirdikcə fəlsəfi polemikalar daha da genişmiqyaslı xarakter kəsb etmişdir. Bəşər tarixinin, zamanın məqsəd və istiqaməti də, onların məzmun və mənası da ancaq tarixi prosesin köləlikdən azadlığa doğru gedişindən başqa bir şey deyildir. Onu da qeyd etmək lazımdır ki, yeni dövrədək azadlıq ideyası olduqca müəmmalı xarakter daşımışdır; filosoflar onun haqqında çox danışmışlar, lakin onların təsəvvüründəki azadlıq sırf abstrakt xarakter daşımışdır. Bu da onunla əlaqədardır ki, yeni dövrədək, konkret desək, XVIII əsrədək fərd anlayışına fəlsəfə yaxınlaşa bilmirdi. Belə ki, azadlıq elə bir anlayışdır ki, onu fərddən kənarda anlamaq çətindir, və ya demək olar ki, azadlıq öz məzmun və mənasını, həqiqətini ancaq fərddə və onun ekzistensional mövcudluğunda tapır [6,s.14-17]. Məhz burjua inqilabları insan azadlıqları haqqında məsələni gündəmə gətirdi.

Azadlıq kateqoriyası ilə əlaqədar XVIII əsrin fransız filosofları-Didrodan Volterədək, məsələləri düzgün anlamış, ictimai və fərdi azadlığı son məqsəd kimi qarşıya qoymuşlar. Klassik alman filosofları bu istiqamətdə xeyli iş görmüşlər. Hegelin "azadlıq-dərk olunmuş zərurətdir" kəlamı artıq hər yerdə öz təsdiqini tapmışdır. Lakin azadlıqla əlaqədar K.Marksın baxışları, xüsusilə "hər

kəsin azadlığı hamının azadlığının şərtidir" ifadəsi diqqətəlayiqdir. Marksizm baniləri sübut edirdilər ki, bəşər tarixinin ilkin çağlarında insan təbiətin köləsi, qeyri-azad məxluq idi, lakin mədəniyyətə və sivilizasiyaya doğru hər bir addım, əslində, azadlığa doğru atılan bir addım idi. Onu da qeyd etmək lazımdır ki, ekzistensialistlərin, xüsusilə də K.Yaspersin azadlıq haqqındakı baxışlarında marksizmin azadlıq haqqındakı baxışlarından gələn xeyli oxşar mülahizələrə rast gəlmək olar. K.Yaspers kommunikasiya problemini ön plana çəkməklə, əslində, "Mən və mühit" məsələsini – "Mən və özgəsi" məsələsini fəlsəfənin diqqət mərkəzinə çəkmiş oldu. Bu da, ümumiyyətlə, ekzistensializmin, o cümlədən Yaspers fəlsəfəsinin etik xarakterindən irəli gəlirdi ki, azadlıq da onun əsasını təşkil edən problemdir. Martin Haydegger "başqası" problemini "qayğı" anlayışına istinad etməklə həll etməyə, Yaspers isə zəkaya söykənməklə məsələni yoluna qoymağa çalışırdı [5, s.447].

Yaspers hesab edirdi ki, mütləq azadlıq heç bir yerdə yoxdur və ola da bilməz. Ona görə də insan azad olmaqla bərabər, eyni zamanda özünü məhdudlaşdırmağa məcburdur. O anlamalıdır ki, "mütləq azadlıq heç yerdə əldə edilmir", insan heçliyin boşluğundan azaddır, yəni heçlikdə mütləq dərəcədə azaddır, qalan hallarda o hansı səviyyədəsə özünü məhdudlaşdırmağa, azadlığının bir hissəsindən başqalarının naminə imtina etməyə məcburdur. Bu da onun hesabına baş verir ki, insan kiminlə kommunikasiyaya girirsə, anlamalı və anlatmalıdır. Ekzistensializm bilavasitə insan, onun varlığı ilə məşğul olduğuna görə rasional idrakdan imtina edir; onun tərəfdarları belə bir inamdan çıxış edirlər ki, varlıq ancaq situasiyada və onun vasitəsilə özünü büruzə verir, situasiya isə irəlicədən verilə bilməz. Ona görə insana rasional üsullarla yaxınlaşmaq fiksiyadan başqa bir şey deyildir. Başqa sözlə, ekzistensialistlər üçün insanın dərkindən söhbət gedərkən rasional vasitələr öz əhəmiyyətini itirir. Onlar inanırlar ki, "Mən"-in varlığı situasiyada "mənim necəliyim" formasında üzə çıxır, gerçəkliyə çevrilir. Anlayışlarla belə bir vəzifəni yerinə yetirmək qeyri-mümkündür. Ekzistensializmin bu cür yanaşması, onun irrasionalizmi bu cür əsaslandırılır [7, s.168].

Yaspers qeyd edirdi ki, ekzistensializm vasitəsilə insan tarixdə itirilmiş mahiyyətini "yenidən özünə qaytarmağa çalışır". Bu kimi mülahizələrlə o demək istəyirdi ki, idrak da, həqiqət də, ekzistensiya da, azadlıq da, bir sözlə, hər şey kommunikasiyadadır. Kommunikasiya elə bir sferadır ki, hər şeyi öz ağuşuna alır. Bu sferaya insan bioloji varlıq kimi deyil, ideya kimi daxil olur, ideya isə insanların əlaqə və münasibətlərindən, onların məhəbbət və nifrətindən, həmrəyliyi və düşmənçiliyindən yaranır. Tarix onları bir-biri ilə əlaqəli yaradır. Onların bir-biri ilə doğmalığı bioloji amillərlə izah oluna və ya empirik şəkildə dərk oluna bilməz. Bir-birindən uzaq məsafələrdə yaşayan insanların arzusu başqa bir insanı görməkdir, məhz bu səbəbdən vəhdət tarixin məzmunu və mənası kimi çıxış edir. İnsanın azadlıq yolu kommunikasiyadan keçir; insan "mən nəyəm" deyirsə, yəni özünün nə olduğunu dərk etmək istəyirsə, anlayır ki, onun özü də, onun yaşaması üçün zəruri olan insan kütlələri də kommunikasiyada gerçəkləşən vəhdətdədir, yəni "azadlıq ideyası həqiqi insan mahiyyətilə əlaqədardır" [4, s.203].

Ekzistensializmi təmsil edən filosofları daha çox birləşdirən, onları vahid ideya ətrafında toplayan və saxlayan bir problem varsa, o da azadlıq ideyasıdır. Haydeggerdə insan kimliyini itirməmək üçün azad olmağa can atır; Sartr azad olmaq üçün nihilist olur; Kamyu azadlıq üçün üsyan edir; Buber azadlığını qorumaq üçün ətrafı bütün varlığı ilə sevir; Yaspers azadlıq naminə zəkasını inkişaf etdirir, qorxu hissini azaltmağa çalışır... Ekzistensialistlər azadlığı çox vaxt qorxu hissi ilə bağlayırlar. Qorxu hissinin ekzistensialistlərdə bu qədər vacib rol oynaması azadlıqla əlaqədardır, bu, "çatışmazlıq deyil, birbaşa özünəməxsus üstünlükdür". Qorxu insan təbiətinin daim zənginləşdirilməsinin, mənəvi saflaşmanın ifadəsidir. "İnsan öz iradəsi əsasında ekzistensional mövcudluğa yüksələ bilməz – bu ancaq onu haqlayan qorxunun əsasında mümkündür". Qorxunun "oda" bənzədilməsi əsas deyildir, məhz bu odun qorxusu insanın ekzistensiyasını öz gerçəkliyində reallaşdırmasını təmin edir. Qorxu insanı hərəkətə sövq edir, onu özünü yenidən yaratmağa, öz qüvvələrini toplayaraq mövcudluğunu təmin etməyə vadar edir. Ölüm qorxusu və ya hər hansı başqa bir qorxu mənbəyi olmasaydı, insan azad olmağa cəhd etməzdi [6, s.94].

"Azadlıq" anlayışı ilə əlaqədar ekzistensialist filosoflar arasında fikir birliyi yoxdur. Sartrda mütləq azadlıqdan söhbət gedir. Haydegger isə belə hesab edirdi ki, insanla dünya, insanla gerçəklik

üz-üzə dayanmışdır. İnsan bu gerçəkliyə daxil olaraq ondan öz iradəsinə uyğun və onun tələbinə müvafiq olaraq istifadə etmək, beləliklə də, gerçəklikdən, onda olan həqiqətdən istədiyi kimi istifadə edə bilirsə, o, həmin gerçəklikdə özünü yaradır, ekzistensiyasını istehsal edir və bu zaman özünü sərbəst hiss edirsə, o, azaddır. Haydegger azadlığın insanla gerçəklik, insanla həqiqət arasında əlaqə və münasibət doğurması ideyasını müdafiə edirdi. İnsan gerçəkliyə daxil olur, öz iradəsi və iddiaları ilə öz azadlığını məhz burada və buranın vasitəsilə tapır. Bu o deməkdir ki, onun daxil olduğu gerçəklikdə insanın idealları arasında "razılaşma" olursa, o, azad hesab edilir, bu şərtlə ki, razılaşmada iradəyə, iradədə isə gerçəkliyə qarşı zidd bir şey olmasın. Belə halda insan öz ekzistensiyasını, varlığını tam dolğunluğu ilə yarada bilir. Bu dolğunluq da onlar arasındakı "razılaşma" ilə müəyyən olunur. M.Haydegger "Həqiqətin mahiyyəti haqqında" adlı məşhur məqaləsində yazırdı: "Özünü əlaqədar istiqamətdən azad etmə ancaq azad varlığın açıq aydınlığa çıxması halında ola bilər". "Ancaq bu cür azad varlıq azadlığın əlçatmaz mahiyyəti üzərindən problemi qaldırır". Bu kimi mülahizələrdən Haydegger belə nəticəyə gəlirdi ki, "həqiqətin mahiyyəti azadlıqdır" . Onun inamına görə, azadlıq varlığın mahiyyətinin açılmasıdır – varlıq öz mahiyyətini sərbəst surətdə, aydın şəkildə ortaya qoya bilirsə, bu, ekzistensiyanın, yəni varlığın mahiyyətinin doğulması, deməli, mahiyyətin üzə çıxmasıdır. "Azadlıq varlığın mahiyyətinin açılışıdır". Bu cür anlaşılan azadlıq "mahiyyətin açılması mənasında həqiqəti tamamlayır və onun mahiyyətini reallaşdırır". Onun qənaəti belədir: "Azadlıq varlığın mahiyyətinin azad təzahürüdür" [3, s.99].

A.Kamyunun azadlıq haqqında öz mülahizələri var. Bu da fərdin absurdla, məna- mənasız həyatla mənalı həyat arasında seçimi ilə əlaqədardır. Kamyu belə hesab edirdi ki, biz "mənfur tiranlar və qullar əsrində yaşayırıq"; Sezar elə bil "yenidən baş qaldırır"; bu əsr insanlığı "necə yaşama?" və "niyə yaşamaq?" seçimi qarşısında qoymuşdur. XX əsri "absurd əsri", "inkar əsri" adlandıran Kamyu belə hesab edirdi ki,insan bunları anlayandan sonra onda azadlıq eşqi alovlanır və "total köləlikdən" qurtarmaq üçün üsyan edir. Bu prosesdə o öz ekzistensiyasını, varlığını yaradır. Tarixdə bu proses daim davam edir; kölələr inqilab edir ki, həyatlarını mənalı, özlərini azad etsinlər, buna da nail olurlar. Lakin bir müddət sonra həmin kölələr yenidən köləyə çevrilir, mənasız həyat sürürlər. Beləliklə, Kamyu üçün azadlıq –üsyandan doğan mənalı həyatın atributu –köləlikdən xilas olan varlığın doğulmasıdır. Yaspers azadlıq probleminin həllində onların hamısından daha realist mövqedə dayanırdı [2, s.118].

K.Yaspers doğru olaraq anlayırdı ki, cəmiyyət ekzistensiyanın təşəkkülünün fundamental şərtidir. Onunla təmasa girmədən, onunla anlaşmadan insan özü azad və xoşbəxt ola bilməz. İnsan ancaq cəmiyyət və ya hər hansı digər sistemlə təmas prosesində öz varlığını tapır, mövcudluğunun bütün imkanlarını ortaya qoyur. Bunun üçün isə azadlıq lazımdır. Azadlıq isə "mahiyyətdə, varlıqdadır", fəlsəfənin axtardığı şey isə "mahiyyətin varlığıdır". Dolayısı yolla o demək istəyir ki, fəlsəfə azadlıq axtaran fəaliyyətdir. Doğrudan da, insan varlığından kənarda azadlıq axtarmaq boş vaxt itirmək kimi bir şeydir. Azadlıq insan varlığının müxtəlif sferalarında zəruri olan şeydir. Bilik azad idraki fəaliyyət prosesində qazanılır və bu mənada deyirlər ki, idrak azadlığa aparan yoldur. Bu mənada Yaspers deyirdi ki, mənim varlığımdan kənarda azadlıq yoxdur. Düzdür, ekzistensializm bəzən (məsələn, Sartr) azadlığı ultraindividualizm kimi təsvir etməyə meyillidir. Bu cəhət hətta ekzistensialist O.fon Bolnov tərəfindən də tənqid olunurdu. O yazırdı ki, bu fəlsəfə bəzən "ifrat şəxsi sferaya qaçır". Yaspersin azadlığa münasibətində bu cür ifratçılığa rast gəlinmir [3, s.175].

K.Yaspersin fikrincə, azad olmadan insan ekzistensiyasını yarada bilməz. Buna görə də demək olar ki, azadlıq ekzistensiyadır, ekzistensiya da azadlıqdır. O azadlığı yalnız ekzistensiya deyil, həm də transsendensiya ilə əlaqələndirirdi. Transsendensiya, onun əqidəsincə, ilahiliyə, Allaha doğru sonsuz hərəkətdir. Bu hərəkətin xarakteri azadlığı müəyyən edir. Transsendensiya azadlığın məkanıdır. İnsan bu məkana doğru sərbəst seçim, azad iradə ilə gedirsə, o öz azadlığını təmin

etmiş olur. İnsan transsendensiyaya gedərkən özünü tapır və bu mənada azadlıq özünü tapma aktı, mahiyyətə yüksəlişdir. Bu fikri bütün təfərrüatı və konkretliyi ilə Sartr aşağıdakı mülahizəsində çox aydın ifadə etmişdir: "Determinizm yoxdur, insan azaddır, insan-azadlıqdır" Bunun əksinə olaraq, Yaspers azadlıqı özünü məhdudlaşdırmadan kənarda təsəvvür etmirdi. Məsələnin başqa cür

qoyuluşu da ola bilməzdi [7, s.327].

**K. Yaspersin fəlsəfəsində insan azadlığı**

K.Yaspers və ümumən ekzistensialist filosofların yaradıcılığında etika problemləri, xüsusən azadlıq ideyası mərkəzi yerlərdən birini tutur. Yaspers bütün fəlsəfi problemlər kimi, azadlıq problemini də kommunikasiya kateqoriyasından çıxış edərək həll etməyə çalışırdı. Onun inamına görə, insan öz azadlığını ancaq kommunikasiyada və kommunikasiyanın vasitəsilə tapır. İnsan "özündə-şey" kimi nə azaddır, nə də kölə, o ancaq kommunikasiyaya, cəmiyyətə, sosial mühitə, situasiyaya daxil olduqda onun azadlığı və ya azad olması haqqında mülahizə söylənilə bilər. K.Yaspers də başqa ekzistensialistlər kimi hesab edirdi ki, azadlıq ruh, ruhiliklə əlaqədardır. "Ruh-azadlıqdır", fəlsəfənin də əsas məsələsi varlıq və azadlıq, ruh və azadlıq məsələsidir. "Hər halda hər cür filosofluq etmə dünyanın aradan qaldırılması, xilasın analoqudur" deyə, o yazırdı [4, s.233].

K.Yaspersin bütün yaradıcılığında azadlıq qədər əhəmiyyət, məna və məzmun verdiyi ikinci bir anlayışa rast gəlinmir. O, azadlığı, sadəcə, məqsəd deyil, məqsədlər məqsədi hesab edirdi. O göstərirdi ki, dildə hamı – bütün xalqlar, siyasi rejimlərin nümayəndələri azadlıq istəyirlər. Bu mənada "azadlıq zamanın elə bir tələbidir ki, o, hamını birləşdirir". Paradoks da bundadır ki, onun anlaşılması və reallaşması məsələsində "dərhal hamı bir-birindən ayrılır". Yaspers qeyd edirdi ki, insanlar adi həyatda hər şeyi azadlıq naminə etdiklərini dilə gətirirlər, halbuki onlar çox vaxt azadlıq naminə "köləlik yoluna" düşürlər. Hətta bəzən elə təəssürat yaranır ki, insanlar azadlıq istəmir, "imkan tapıb ondan qaçmağa çalışırlar". Bütün bunlar göstərir ki, azadlıq həm qorxu yaradır, həm də entuziazm, yəni o, çox paradoksal, müəmmalı, sirli bir anlayışdır; insan üçün heç bir başqa anlayışla müqayisə edilməyəcək dərəcədə əhəmiyyəti olan bir fenomendir ki, onu ancaq həyatın özü ilə müqayisə etmək olar. Azadlıq varsa, həyat, mövcudluq da var, azadlıq yoxdursa, ancaq heçlikdən söhbət gedə bilər [6, s.166].

Azadlığın məzmunu və mənasını həyat, kommunikasiya müəyyən edir. Lakin nə həyat, nə də kommunikasiya ziddiyyətsiz mümkün deyildir. Azadlıq öz imkanlarında hər şeydir, o nəinki ziddiyyətləri qəbul edir, hətta onu özünə, öz məzmununa daxil edir. "Azadlıq sonsuz açıqlığın zəkasıdır...", ona görə də azadlıq məhsuldar polyarlıq axtarır ki, orada bir tərəf digərsiz məhv olardı". Bu, məsələnin çox düzgün qoyuluşudur. Doğurdan da, əks tərəf, polyarlıq, ziddiyyət olmadan azadlıqdan danışmaq absurddur. Sovet cəmiyyətinin, hər hansı bir totalitar rejimin yaratdığı cəmiyyətdə polyarlıq, sosial varlıqda, iqtisadi həyatda, siyasi varlıqda, fikirdə bir qrup özünü mütləqləşdirərək başqa qrupları küncə sıxır və sonra da azadlıqdan danışır. Belə halda azadlıq haqqında hər hansı söhbət mənasız diskursdan başqa bir şey deyildir. Azadlığın müxtəlf növləri var: siyasi, iqtisadi, ictimai, fikir azadlığı, mətbuat, yığıncaqlar və s. Bunların önündə siyasi azadlıq gəlir ki, məhz bununla bağlı hamını təmin edə biləcək cavab yoxdur.

Azadlıq tamın iradəsinin ifadəsində bütün vətəndaşların iştirakı, onlara biliklərə və fəaliyyətə münasibətdə sərbəstlik verilməsidir. Bu cür azadlıq, yəni siyasi azadlıq, ancaq Qərbdə olmuşdur, "onun reallaşması da əksər hallarda uğursuzluqla nəticələnmişdir". Məhz bu səbəbdən Afinada, Romada xalqlar öz azadlıqlarını –insanın əsl mövcudluq və rəftar sferasını itirmişlər. Lakin azadlıq elə şeydir ki, onun uğrunda ölümə getmək olar, çünki bu, əsl, həqiqi həyat və mövcudluqdur. Bununla belə, azadlıq üzərində "anonim qüvvələr dolaşır və onlar insanı nəinki azadlıqdan məhrum etməyə, hətta özündən qaçmasını təmin etməyə çalışırlar. "Bu anonim qüvvələr haqqındakı məsələ insanın özünün mövcudluğu haqqındakı məsələdir" [5, s.166-167].

K.Yaspers sözügedən anonim qüvvələrin bütöv şəbəkəsini təsəvvür edir. Doğrudan da, insanı bu şəbəkədən kənar sferada təsəvvür etmək çətindir, yəni insanın həyatı və mövcudluğu bir tərəfdən onu azadlığa səslədiyi halda, digər tərəfdən müəyyən qüvvə kimi onu məngənədə saxlayır, azadlığını pozur. Bu qüvvələr sırasında birinci yeri işgüzarlıq tutur. Hamıya bəllidir ki, müasir həyat insandan işgüzarlıq və bunun maksimuma çatdırılmasını tələb edir, lakin bu fakt insanın azadlığına qarşı çıxır. Bu, tale kimi bir şeydir; işgüzar olmayanda yaşaya bilmirsən, işgüzar olanda da öz həyatını və azadlığını boğmalı olursan. Bunu Yaspers də anlayırdı, ona görə də işgüzarlığı "maska" adlandırırdı. Bu qəbildən olan qüvvələrdən biri də qərar qəbul etməmək arzusudur. Burada da ümumi iradə ilə

şəxsi iradə arasında “gizli müharibə gedir” [3, s.390].

Heç kim öz xoşuna ümumi struktur üçün qərar qəbul etmək istəmir, çünki fərdi iradə ümumi iradə ilə toqquşur. Bu da son nəticədə qüvvəyə çevriləcək azadlığa qarşı durur. Nəticədə, bu, insana iztirab verir. Daha sonra təhrif gəlir. Müasir həyat elə qurulmuşdur ki, insan hər tərəfdən ünsiyyət normaları və müxtəlif nitq vasitələri ilə əhatə olunmuş, “mühasirəyə alınmışdır”. İnsan mövcud olmaq üçün azadlığını təhrif etməyə məcburdur, yəni sözdə onu qəbul edir, işdə isə onun olmadığını etiraf edə bilmir. Ona görə də o, azadlığını təhrif etməyə-verilənlə hesablaşmağa məcburdur. Beləliklə, “öz təhrifində o, azadlığa qarşı çıxır. Müasir insanın halı, onun yaşadığı sosial şərait də elə qurulmuşdur ki, insan heç bir qərar qəbul etmədən, onu icra etmədən şəxsiyyətini ortaya qoya bilmir. Qəbul olunmuş qərarlar ancaq “nəhəng aparatın taleyi” ilə əlaqədar olur. Ona görə də indi “qəhrəman” yoxdur, hətta “bu sözü işlətməkdən çəkinirlər”. İndi fərd öz qəhrəmanlığını nümayiş etdirmək, özünü təsdiq etdirmək əvəzinə, “susaraq dözməli və iştirak etməlidir” [6, s.396].

Daha sonra Yaspers göstərir ki, müasir cəmiyyətdə “cəbhəsiz müharibə” gedir. Anonim qüvvələrin müsbət cəhdlərini də Yaspers nəzərdən qaçırmır. O göstərirdi ki, “anonimlik əsl varlıqdır”, o, “heçliyin mövcud olmasına olan yeganə əminlikdir”. Anonimliyin yaratdığı varlıq “eyni zamanda qeyri-varlığın mövcudluğudur”. O elə bir şeydir ki, “öz yeganəliyində məni yüksəldir, eyni zamanda o şeydir ki, öz varlığımı axtararkən onunla mübarizə aparmalıyam”. Yaspers qeyd edir ki, müasir dövrdə insan üzərində ağalıq edən anonim qüvvə primitiv insanın demonlarının analoqudur. Müasir insan bu qüvvələrlə birgə yaşayır, həm də onlarla mübarizə vəziyyətindədir. Qəribədir ki, insan anonim qüvvələri “göz görə-görə” duya bilmir, ona görə ki, “anonim qüvvələr gözdən yayınır və öz simasını dəyişir. Əgər mən birdən onları tutsam, onlar artıq olduqları şey deyildir”. Yaspersin anonim qüvvələr haqqındakı ümumi qənaəti bundan ibarətdir ki, anonim qüvvələrdən və onların həqiqi varlığa və azadlığa qarşı gizli və ya açıq, şüurlu və qeyri-şüuri mübarizəsindən asılı olmayaraq, insan azad olmalıdır və ancaq onda və onun vasitəsilə özünün həqiqi mövcudluğunu tapa bilər [4, s.398].

K.Yaspers “azadlıq” anlayışını müasir dünya prosesinin tendensiyasından kənarda tədqiq etmir. Bu proses isə üç tendensiyanı müəyyənləşdirir: 1)Kütlələr: onları sosializm müdafiə edir, dünyada düzən tələb edir; bu düzən yaradılsa, kütlələr istədiyinə nail olacaq, amma azadlıq olmayacaq –fərdin özü və onun azadlığı tamın içərisində itəcəkdir; 2) Planetin vəhdəti ideyasının həyata keçirilməsi alternativ yaradacaq: ya dünya imperiyası, ya da dünya düzəni; 3)Belə halda inam itəcək və yeni alternativ yaranacaq: nihilizm, yaxud məhəbbət. Dünya düzəninin gələcəyinə aid olan bu tendensiyalar “azadlıq” anlayışının analizini və onun məqsədlər məqsədi kimi müəyyən olunmasını tələb edir. Dünyada azadlıq bərqərar olduqda – insan azad və sərbəst olduqda, nə dünya imperiyasına, nə sosializmə, nə də ki, nihilizmə ehtiyac olacaq. Onların əvəzində azadlıq olduqda, məhəbbət universal tamın prinsipinə çevriləcək, sosializmə, yəni fərdiyyətin və azadlığın nə olduğunu bilməyən düşüncəsiz heçliyin hakimiyyətinə ehtiyac olmayacaq; bu isə öz növbəsində nihilizmi və inamsızlığı rədd edən bir dünya düzəninin meydana gəlməsinə səbəb olacaqdır. Bütün bunların bərqərar edilməsi üçün “sevə-sevə mübarizə aparmaq” və azadlığın dünya miqyasında qələbəsinə nail olmaq lazımdır. Ancaq bundan sonra insanlar, xalqlar, dövlətlərarası ünsiyyət məhəbbətə əsaslana bilər. Bu isə əsas məqsədin – azadlığın əldə edilməsini tələb edir. Yaspers elə bu niyyətlə də “azadlıq” anlayışını “Məqsəd-azadlıqdır” başlığı altında təhlil edir [1, s.167].

K.Yaspers azadlıq anlayışının fəlsəfi mənasını müəyyənləşdirərək belə qərara gəlir ki, azadlıq – “insanın əsl varlığının və rəftarının sferasıdır”. Azadlıq arzudan doğur, insan isə öz arzusunun “ədalətli” olmasına çalışmalıdır. Bu elə azadlığın özü qədər vacib məsələdir. Bunun üçün ilkin şərt odur ki: birinci, mən gərək insan cəmiyyətində mövcud ola biləcəyimi anlayım; ikinci, gərək mən anlayım ki, mənim azadlığım təmin edildiyi qədər başqalarının da azadlığı təmin edilməyincə, mən azad ola bilmərəm. Çünki “azadlıq ancaq insanların birliyində həyata keçirilir. Mən başqaları azad olduğu qədər azad ola bilərəm”. Azadlığın həqiqəti ancaq bu yolla əldə edilə bilər [5,s.15].

Beləliklə, Yaspers “azadlıq” üçün üç prinsip müəyyən edir: 1)insan kommunikativ məxluq olduğuna görə onun azadlığı ancaq kommunikasiya və onun qanunlarının anlaşılmasından

doğmalıdır; 2) kommunikasiya müəyyən norma və prinsiplərə əsaslandığı üçün azad olmaq istəyən fərd həmin qanun və normalara tabe olmaqla özünü məhdudlaşdırmağı bacarmalıdır; 3) azadlıq və məsuliyyət –sərbəst iradə və özünüməhdudlaşdırma bir-birini istisna etmir, əksinə, bir-birini şərtləndirir. Çünki fərdin azadlığı bütünlüklə cəmiyyətin azadlığını, bu və ya digər konkret cəmiyyətin azadlığı bütün bəşəriyyətin azadlığını tələb edir. Başqa cür ola da bilməz, ona görə ki, "həqiqi azadlıq öz hədlərini anlamaqdır". Təcrid edilmiş azadlıq yoxdur. Belə ki, fərdlər ancaq başqaları ilə birlikdə azad olmaq naminə özlərinin donuqbaş azadlıqlarından imtina edirlər" [5, s.169].

Yaspers bütün fəaliyyəti ilə sübut etməyə cəhd edir ki, mütləq həqiqət heç kimə məxsus ola bilməz və bu mənada heç kim mütləq azadlığa sahib ola bilməz. Azadlığa yiyələnmə zəkadan keçir, zəka isə "hər yerdə açıqlıq" deməkdir; zəka hər şeyi birləşdirir, əksiklikləri-elmi və inamı, dünya və transsendensiyanı birləşdirir, bununla da "şüurun köməkliyi ilə dialektikanı ən son nəticələrinədək faktiki olaraq çatdırır". Yer üzündə zəka qələbə çalarsa, əksliklər arasında ziddiyyətlər aradan qalxar və dünya miqyasında məhəbbət hökm sürər. Ancaq bu zaman kommunikasiya ağlauyğun qurula bilər. Lakin bu öz-özünə baş verə bilməz-bu məqsəd uğrunda silahla deyil, "məhəbbətlə mübarizə" aparmaq lazımdır. Yaspersin "azadlıq" anlayışının fəlsəfi mənası ilə əlaqədar irəli sürdüyü mülahizələrdən aydın olur ki, onun təsəvvüründə azadlıq predmet gerçəkliyindən məhrum olan bir anlayışdır; azadlıq seçim aktıdır, mövcudluq üsuludur. Ona görə də, azadlığa başqa predmet xarakterli anlayışlar kimi tərif verilə bilməz [3, s.11].

Azadlığı insanın mövcudluq üsulunda görmək, sezmək, müşahidə etmək olar, məsələn, hiss etmək olar ki, filan ölkənin vətəndaşı kölə, digərinki azaddır, lakin görünən, sezilən, hiss olunan bu azadlığı predmetləşdirmək olmaz. Yaspers özü etiraf edirdi ki, mənim azadlıq haqqında dediklərimdən heç də o nəticə çıxarıla bilməz ki, biz azadlığın nə olduğunu bilirik: "Azadlıq nədir?" sualının cavabını biz bilirikmi? Bu sualın bir cavabı var: "xeyr". Azadlıq predmet deyildir. O, dünyada real mövcudluğa malik deyildir ki, biz onu tədqiq edə biləк. Elmi idrakın predmeti kimi azadlıq mövcud deyildir. Ona görə də onu möhkəm təsdiqini tapmış predmet kimi müəyyən etmək olmaz". Azadlığın elmi anlayışını verməkdən çəkinən Yaspers dərhal onun daxili və beynəlxalq aspektlərinin analizinə keçir [3, s.170].

K.Yaspers qeyd edir ki, azadlıqın əsas təminatçısı dövlət və onun qanunlarıdır. Qanun olmayan yerdə heç bir azadlıqdan söhbət gedə bilməz; ədalət də, azadlıq da qanuna münasibətdə özünü büruzə verir. Azadlığın təmin edildiyi dövlət hüquqi dövlətdir ki, o da özünün konstitutsiyasında vətəndaşların hüquq və vəzifələrini müəyyən edir və onların yerinə yetirildiyi zaman ədalət zəfər çalmış olur. Hakimiyyətin sui-istifadə alətinə çevrilməməsi üçün legitimlik zəruridir. "Legitimlik olmayan yerdə azadlıq da məhv olur". Beləliklə, "azadlıq hüquqi dövlətində öz məqsədinə çatır" [4, s.174].

## Nəticə/Conclusion

Yaspers üçün azadlıq həyatı mənalı və xoşbəxt etməyin rəhnidir, məna və xoşbəxtlik isə ancaq kommunikasiyada mümkündür. Ona görə də "azadlıq nə üçün lazımdır?" sualına Yaspersin cavabı belədir: "Həyatı mənalı etmək üçün". Azadlıq "necə yaşamaq və necə ölmək?" kimi problemin mahiyyətindən doğur. Azadlı]ın dəyərini bilən insan onsuz həyatı ölüm hesab edir. Azadlıq – fundamental tələbat olaraq həyatın mövcudluğu üçün əsas şərt olan tələbatdır. Onun çox vaxt xoşbəxtliklə eyniləşdirilməsi də bununla əlaqədardır: "Həyatın mənasızlığı dünən kəşf edilən məsələ deyil, bu, qədim müdriklər tərəfindən təsdiq olunmuş məsələdir". Həyatın mənası insanın girdiyi əlaqə və münasibətlərin onun iradə, istək, arzu və ideallarına uyğun gəlib-gəlməməsilə müəyyən olunur. Doğurdan da, mən o zaman azad və xoşbəxt ola bilərəm ki, məni əhatə edən mühit mənim arzu və ideallarıma qarşı durmasın, əksinə, mənə onları genişləndirmək imkanı versin, yəni mənim azadlığımı təmin etsin [7, s.98].

Yaspers üçün də Robinzonun həyatı mənasız həyatdır, çünki bu, polyarlıqdan və ünsiyyətdən məhrum həyatdır. Həyata məna verən və vəhdət yaradan azadlıq və ünsiyyətdir. Lakin ünsiyyətə

girən müəyyən şəxsiyyətdir, ona görə də onun dünyagörüşü, fəlsəfəsi, bu və ya digər baxışları, bir sözlə, daxili zənginliyi zəruridir, bu da özü ilə vəhdətdə olanlar, ünsiyyətə girənlər arasında harmoniya yarada bilər. Yaspers zəkanın işini məhz bunda görürdü. Həyatın mənası "insanın yaşadığı əlaqələrin ifadəsidir". Başqa cür ola da bilməz. Ona görə ki, insan müəyyən bir dünyagörüşə, oriyentasiyaya, ağıla, idraka, mədəniyyətə, inama sahib olmadan, yəni azadlığın zərurət olduğunu anlamadan kommunikasiyaya girirsə, o nə başqaları, nə də özü üçün azad mühit tapa bilməz. Deməli, azadlığın təminatı yalnız kommunikasiyadan deyil, həm də ona daxil olan fərdlərin daxili zənginliyindən asılıdır. O hesab edirdi ki, indi hamı azadlığa can atır, lakin insanların çoxu azadlığa tab gətirmirlər; onlar azadlıq naminə azadlıqdan qaçırlar. Konkret olaraq Yaspersdən söhbət gedərkən onu nəzərə almaq lazımdır ki, onun üçün kommunikasiyanın modeli, onun məntiqi azadlığın təminatı üçün paradiqmadır [6, s.93].

Beləliklə, fəlsəfi inancın köməyi ilə insanlar arasında dialoq əlaqələri quran ekzistensial ünsiyyət ekzistensial hissi və düşüncəni ünsiyyət vasitəsilə əlaqələndirməyə imkan verir. Yaspersin kommunikasiyasının ekzistensial konsepsiyası kommunikasiyanın yerini və rolunu anlamaq, onun rasionallığı problemlərinin işlənib hazırlanmasına mühüm töhfə olmuşdur. Bu, ən əhəmiyyətli kommunikativ nəzəriyyələrin ayrı-ayrı elementləri, onların gələcək inkişafı və dərkini nəzərdə tutur. Həmçinin vahid tədqiqat proqramı çərçivəsində kommunikasiya fenomeninin mahiyyətinin kompleks, inteqrativ dərk edilməsinə yönəlmiş yeni yanaşmaların və tədqiqat proqramlarının işlənib hazırlanmasına yönəlmişdir.

## İstifadə olunmuş ədəbiyyat/References

1.İsmayılov F.Q. Seçilmiş əsərləri, 6 cilddə, Bakı: Oğuz eli, 2011, I c.

2.Xəlilov S. Mənəviyyat fəlsəfəsi, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2007.

3.Burxanov A.R. Celovek i eqo ekziatensiya v filosofii Karla Yaspersa. https://cyberleninka.ru/article/n/chelovek-i-ego-ekzistentsiya-v-filosofii-karla-yaspersa/viewer

4. Belozerov A.B. Ponyatiye kommunikatsii v ekzistentsial'noy filosofii K. Yaspersa. Vestnik KGU im. N.A. Nekrasova, № 3, 2011

5. Pertsev A.V. Ranniy Yaspers: rozhdeniye ekzistentsializma iz dukha psikhiatrii. / A.V. Pertsev, Ye.S. Cherepanova // Filosofiya kak vital'naya potrebnost'. Yekaterinburg, 2000.

6. Yaspers K. Filosofiya. Kniga pervaya. Filosofskoye oriyentirovaniye v mire. M.: «Kanon+» ROOI «Reabilitatsiya», 2012.

7. Yaspers K. Filosofiya. Kniga vtoraya. Prosvetleniye ekzistentsii. Izdatel'stvo: M.: «Kanon+» ROOI «Reabilitatsiya», 2012.

**Göndərilib: 09.01.21** **Qəbul edilib:24.02.21**